International Commission on Missing Persons

Qiymətləndirmə Hesabatı

# Beynəlxalq İtkın Düşmüş Şəxslər Komıssıyasi Qıymətləndırmə Hesabatı

# **Azərbaycan Respublikasında İtkın Düşmüş Şəxslərın Uçotu**

İyul 2024

Qiymətləndirmə Hesabatı

# Beynəlxalq İtkın Düşmüş Şəxslər Komıssıyasi Qıymətləndırmə Hesabatı

# **Azərbaycan Respublikasında İtkın Düşmüş Şəxslərın Uçotu**

Bu tərcümə, ingilis dilində olan orijinal sənədin tərcüməsidir, istinad ICMP.DG.1895.3.doc, 2 iyul -2024cü il. Ingilis dilindəki orijinal mətnlə bu tərcümə arasında hər hansı uyğunsuzluq yaranarsa, hüquqi qüvvəyə malik olan orijinal mətn əsas götürüləcəkdir.

# Mündəricat


**I. Xülasə** **5**

**II. Giriş** **6**

2.1. Kontekst 6

2.2. Əhatə dairəsi və Metodologiya 6

2.3. Azərbaycanda İtkin Düşmüş Şəxslərin Sayı 7

**III. Azərbaycanda İtkin Düşmüş Şəxslərin Uçotu** **8**

3.1. Hüquqi Çərçivə və Dövlətin Öhdəlikləri 8

3.2. İnstitusional Çərçivə 10

3.3. İtkin Düşmüş Şəxslərlə Bağlı Araşdırma Prosedurları və Digər Tədbirlər 12

3.4. Vətəndaş Cəmiyyəti və Ailə Assosiasiyaları 15

3.5. Beynəlxalq Təşkilatların Rolu 16

**IV. İtkin Düşmüş Şəxslərlə Bağlı Çətinliklər** **17**

4.1. Hüquqi və İnstitusional Çərçivə 17

4.2. Araşdırmalarda və Məhkəmə-Tibbi Ekspertiza Prosesində Tətbiq Edilən Prosedurlar 17

4.3. Vətəndaş Cəmiyyətinin İştirakı və Ailələrin Hüquqları 18

4.4. Əməkdaşlıq Mexanizmləri 18

**V. Tövsiyələr** **19**

5.1. İtkin Düşmüş Şəxslərin Axtarışı Üçün Hüquqi Çərçivənin Gücləndirilməsi 19

5.2. Araşdırmalarda Standartların və Prosedurların Təkmilləşdirilməsi və Məhkəmə-Tibbi Potensialın Gücləndirilməsi 19

5.3. İtkin Düşmüş Şəxslərin Ailələrinin Hüquqlarının Təmin Edilməsi və Vətəndaş Cəmiyyətinin İştirakı 21

5.4. Beynəlxalq İctimaiyyət ilə Əməkdaşlıq 21

**VI. ICMP Haqqında** **22**

**VII. Təşəkkürlər sözləri** **23**

# Qısaltmalar

## Dövlət qurumları

| | |
|---|---|
| **ANAMA** | Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi |
| **XİN** | Xarici İşlər Nazirliyi |
| **DİN** | Daxili İşlər Nazirliyi |
| **MN** | Müdafiə Nazirliyi |
| **SN** | Səhiyyə Nazirliyi |
| **MoJ** | Ministry of Justice |
| **Ədliyyə Nazirliyi** | Ədliyyə Nazirliyi |
| **DK** | Hərbi Əsirlər, Girovlar və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyası |
| **DTX** | Dövlət Təhlükəsizliyi Xidməti |
| **AMEA AEAİ** | Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu |

## Beynəlxalq və digər təşkilatlar

| | |
|---|---|
| **HCA** | Helsinki Vətəndaş Assambleyası – Azərbaycan Nümayəndəliyi |
| **IWG** | Qarabağ Münaqişəsi üzrə Hərbi Əsirlərin və Girovların Azad Edilməsi və İtkin Düşmüş Şəxslərin Axtarışı üzrə Beynəlxalq İşçi Qrupu |
| **AŞ** | Avropa Şurası |
| **Aİ** | Avropa İttifaqı |
| **BMM** | Beynəlxalq Cinayət Məhkəməsi |
| **ICMP** | İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyası |
| **BQXK** | Beynəlxalq Qırmızı Xaç Komitəsi |
| **ATƏT** | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| **AŞPA** | Avropa Şurası Parlament Assambleyası |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |

## Terminologiya

| | |
|---|---|
| **AM** | Ölümqabağı məlumatlar (Ante-mortem) |
| **DNT** | Dezoksiribonuklein turşusu (DNA) |
| **DVI** | Fəlakət Qurbanlarının Identifikasiyası (Disaster Victim Identification) |
| **FRS** | Ailə referans nümunələri (Family Reference Samples) |
| **iDMS** | İnteqrasiya olunmuş Məlumat İdarəetmə Sistemi (Integrated Data Management System) |
| **QHT** | Qeyri-hökumət təşkilatı (NGO) |
| **OIC** | Onlayn Sorğu Mərkəzi (Online Inquiry Center) |
| **PM** | Ölümsonrası məlumatlar (Post-mortem) |
| **HƏ** | Hərbi əsirlər (Prisoners of War – POW) |
| **STR** | Qısa tandem təkrarı (Short Tandem Repeat) |

Bu qiymətləndirmə hesabatı Niderland Krallığının Xarici İşlər Nazirliyinin dəstəyi və maliyyələşdirməsi ilə hazırlanmışdır. Hesabatın məzmunu yalnız İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyasının (ICMP) məsuliyyətindədir və Niderland hökumətinin baxışlarını və ya mövqeyini əks etdirdiyi kimi qəbul edilə bilməz.

# I. Xülasə

Onilliklər ərzində davam edən Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində itkin düşmüş şəxslərin ümumi sayının təxminən 5,000 nəfər olduğu hesab edilir. Azərbaycan tərəfi bildirir ki, birinci Qarabağ müharibəsi (1990-cı illərin əvvəlləri) zamanı 3,890 nəfərin, ikinci Qarabağ müharibəsi (sentyabr-noyabr 2020) zamanı isə 6 nəfərin itkin düşməsi barədə rəsmi məlumatlar alıblar.[1]

Bu ümumi rəqəm digər müasir münaqişələrlə müqayisədə nisbətən azdır. Məsələn, 1990-cı illərdə keçmiş Yuqoslaviyada baş verən münaqişələrdə təxminən 40,000 nəfər itkin düşmüşdür, Ukraynada hazırda davam edən müharibədə isə 30,000-dən çox itkin düşmüş şəxs qeydə alınmışdır. Lakin, Ermənistan-Azərbaycan münaqişəsində itkin düşmüş şəxslərin yalnız az bir hissəsinin taleyi aydınlaşdırılıb. Müqayisə üçün, keçmiş Yuqoslaviya münaqişələri zamanı 40,000 nəfərdən 70 faizdən çoxunun taleyi müəyyən edilmişdir. Bu prosesə beynəlxalq və yerli məhkəmə qurumlarının fəal iştirakı, hökumətlərarası geniş əməkdaşlıq, itkin düşmüş şəxslərin ailələrinin aktiv rolu və digər mühüm amillər yardım etmişdir. Bu hesabatda həmin amillər Azərbaycanın kontekstində də nəzərdən keçiriləcəkdir.

Azərbaycan Hökumətinin dəvəti ilə İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyası (ICMP) 2023-cü ilin iyun ayında Azərbaycanda qiymətləndirmə aparmış və bir sıra hökumət və məhkəmə institutlarının nümayəndələri, vətəndaş cəmiyyəti təşkilatları, beynəlxalq ictimaiyyətin nümayəndələri, həmçinin texniki və məhkəmə-tibbi ekspertlərlə müsahibələr keçirmişdir. Bundan əlavə, ICMP, yaxın zamanda itkin düşmüş şəxslərə aid insan qalıqlarının aşkar edildiyi Füzuli bölgəsində məhkəmə-tibbi araşdırma üçün əhəmiyyət kəsb edən yerləri ziyarət etmişdir. Bu qiymətləndirmə çərçivəsində ICMP, itkin düşmüş şəxslərin uçotu üçün mövcud olan qanunvericilik və institusional çərçivəni, bu halların həlli ilə məşğul olan qurumların elmi və texniki imkanlarını, eləcə də vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatların prosesdə iştirakını araşdırmışdır.

Azərbaycanda müəyyən edilən əsas çətinliklər arasında basdırılma yerləri barədə məlumat mübadiləsinin olmaması, işğaldan azad edilmiş ərazilərdə insan qalıqlarının tapılması və çıxarılması üçün səylərin koordinasiyası, eləcə də ciddi təhlükəsizlik və logistika ilə bağlı maneələr yer alır. Bu maneələrə geniş miqyasda minaların mövcudluğu və əsasən skeletləşmiş insan qalıqlarının identifikasiyası ehtiyacı daxildir. Bundan əlavə, Azərbaycanda vətəndaş cəmiyyəti və itkin düşmüş şəxslərin ailələri, itkinlərin uçotu ilə bağlı qərarların qəbul edilməsində yaxından iştirak etməmişdir.

Bu və digər çətinliklərə strateji cavab vermək məqsədilə bu hesabat məlumatların idarə edilməsi sahəsində bir sıra tövsiyələr təqdim edir. Bunlara mərkəzləşdirilmiş məlumat emal sisteminin tətbiqi, insan qalıqlarının yerinin müəyyən edilməsi, çıxarılması, qazıntı və ekspertiza prosedurlarının təkmilləşdirilməsi, sübutların sənədləşdirilməsi və DNT testlərinin imkanlarının genişləndirilməsi daxildir. Hesabat, həmçinin, DNT testlərinin şəffaflığını, legitimliyini və qəbul olunmasını artırmaq məqsədilə Ermənistan və Azərbaycan arasında əməkdaşlıq çərçivəsində müstəqil DNT müqayisə mexanizminin yaradılmasını təklif edir.

Bu hesabatın məqsədi Azərbaycanda insan hüquqları və qanunun aliliyi prinsiplərinə əsaslanan, dayanıqlı, etibarlı, qərəzsiz, inklüziv və effektiv bir itkin düşmüş şəxslərin uçotu prosesinin yaradılmasına töhfə verməkdir.

1 Hərbi Əsirlər, Girovlar və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyasının veb saytı, 13 avqust 2023-cü il tarixində baxılmışdır http://human.gov.az/az/index.html

# II. Giriş

## 2.1. Kontekst

2022-ci ilin aprel ayında İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyasının (ICMP) Baş direktoru Azərbaycan Respublikasının dəvəti ilə Bakıya səfər edərək münaqişə nəticəsində itkin düşmüş şəxslərin tapılması istiqamətində Azərbaycan hökümətinə göstərilə biləcək dəstək yollarını müzakirə etmişdir. Azərbaycan hökümət itkin düşmüş şəxslərin uçotu prosesini gücləndirmək üçün aydın siyasi iradə nümayiş etdirmiş və buna cavab olaraq ICMP, ölkədə itkin düşmüş şəxslərlə bağlı məsələnin hərtərəfli qiymətləndirilməsini həyata keçirməyi təklif etmişdir.

Bu qiymətləndirmə çərçivəsində ICMP, müvafiq hökumət və məhkəmə institutlarının fəaliyyətini, mövcud qanunvericilik bazasını, elmi və texniki imkanları, eləcə də itkin düşmüş şəxslərin ailələrinin, ictimai müdafiə qruplarının və vətəndaş cəmiyyətinin digər üzvlərinin iştirakını və əməkdaşlıq mexanizmlərini araşdırmaq imkanı əldə etmişdir.

Bu hesabat aparılmış qiymətləndirmənin nəticələrini təqdim edir və davamlı və effektiv bir itkin düşmüş şəxslərin uçotu prosesinin qurulması üçün müəyyən edilmiş çətinliklərin və boşluqların aradan qaldırılması məqsədilə tövsiyələr siyahısını özündə ehtiva edir.

## 2.2. Əhatə dairəsi və Metodologiya

ICMP, Azərbaycanda itkin düşmüş şəxslərlə bağlı rəsmi birinci və ikinci dərəcəli mənbələri, o cümlədən rəsmi bəyanatlar, akademik tədqiqatlar, beynəlxalq siyasət hesabatları və media materiallarını geniş təhlil aparmışdır. ICMP, bu mövzu üzrə fəaliyyət göstərən əsas institutları, təşkilatları və şəxsləri, eləcə də Cənubi Qafqaz regionu üzrə müstəqil ekspertləri müəyyən etmişdir. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) və Hərbi Əsirlər, Girovlar və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyası (Dövlət Komissiyası, DK) məsləhətləşmə gündəliyinin hazırlanmasına dəstək göstərmişdir. Bundan əlavə, Bakıda aparılan müsahibələr zamanı əldə edilən tövsiyələr əsasında əlavə operativ məsləhətləşmələr də qiymətləndirməyə daxil edilmişdir.

2023-cü il 5-16 iyun tarixlərində keçirilən səfər çərçivəsində ICMP nümayəndələri, Azərbaycanda əsas maraqlı tərəflərlə görüşərək onların fəaliyyət istiqamətlərini və itkin düşmüş şəxslərin tapılması üçün tətbiq etdikləri prosedurları müzakirə etmişdir. Bu yolla ICMP, bütün maraqlı tərəflərin hüquqi və institusional çərçivəsini, onların bir-biri və xarici qurumlarla necə əməkdaşlıq etdiyini daha yaxşı anlamağa çalışmışdır. İnterdisiplinar yanaşmanı tətbiq edərək, müxtəlif sahələr üzrə ekspertlərdən ibarət ICMP heyəti, DNT-yə əsaslanan insan identifikasiyası prosesləri, naməlum qalıqların çıxarılması və ekspertizası, eləcə də məlumatların emalı üçün müəyyən edilmiş siyasət və sistemlər kimi mövzular üzrə əlavə texniki müsahibələr aparmışdır.

Qiymətləndirmə çərçivəsində ICMP, dövlət qurumları, hüquq-mühafizə orqanları, yerli vətəndaş cəmiyyəti, beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatlarının (QHT) 20-dən çox nümayəndəsi ilə görüşlər keçirib və müsahibələr aparmışdır.[2] Qiymətləndirməyə, həmçinin, 2020-ci il İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycanın nəzarətinə qaytarılmış ərazilərdə məzar yerlərinin ekshumasiyası üzrə pilot layihənin bir hissəsi kimi işlənmiş üç məkanı araşdırmaq məqsədilə Füzuli bölgəsinə sahə səfəri də daxil edilmişdir.

2 (Bütün maraqlı tərəflərin tam siyahısı üçün VII bölməyə baxın)

Hazırkı hesabatın hazırlanması üçün dövlət qurumları, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlarla aparılan müsahibələr vasitəsilə toplanmış məlumatlar insan hüquqları və hüququn aliliyi standartları əsasında qiymətləndirilmişdir. Bu qiymətləndirmə, dövlətlərin itkin düşmə və şəxslərin yoxa çıxması halları ilə bağlı araşdırma aparmaq öhdəliklərinə uyğunluğunu müəyyən etmək məqsədini daşıyır.

## 2.3. Azərbaycanda İtkin Düşmüş Şəxslərin Sayı

Birinci Qarabağ müharibəsi ilə bağlı olaraq, Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) 2015-ci ildə bölgədən itkin düşmüş 4,496 nəfərin[3] yenilənmiş siyahısını təqdim etmişdir. Azərbaycan Respublikasının hökümətinin məlumatına görə, hesabatın hazırlandığı dövrdə itkin düşmüş azərbaycanlıların sayı 3,890 nəfərdir. Onlardan 3,171 nəfəri silahlı qüvvələrin üzvləri, 719 nəfəri isə mülki şəxslərdir. Mülki şəxslərin arasında 326 yaşlı insan, 267 qadın və 71 uşaq yer alır.[4]

Qiymətləndirmə dövründə Azərbaycan, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) dəstəyi ilə itkin düşmüş şəxslərin ailələrindən DNT profilləşdirilməsi üçün 10,805 bioloji nümunənin toplandığını bildirmişdir.[5] Həmçinin, 2022-ci ilin sentyabr ayından 2023-cü ilin mart ayına qədər bütün nümunələrin tam işlənildiyi və genetik müqayisə üçün profilləndiyi qeyd edilmişdir.

İkinci Qarabağ müharibəsi ilə bağlı olaraq, Azərbaycan hököməti qiymətləndirmə zamanı altı nəfərin (hamısı hərbi qulluqçu) hələ də itkin düşmüş kimi qeydə alındığını bildirmişdir. 2023-cü ilin sentyabr ayında Azərbaycan, BQXK və digər qurumlarla əməkdaşlıq çərçivəsində kütləvi məzarlıqlardan 508 insan qalığını çıxardığını bildirmişdir. Bundan əlavə, Qarabağ regionunda aparılan genişmiqyaslı tikinti işləri zamanı "azı 98 nəfərə aid qalıqların" aşkar edildiyi qeyd olunmuşdur. Dövlət Komissiyasının məlumatına görə, bu günə qədər 25 nəfərə aid qalıqlar identifikasiya olunmuşdur.[6]

2023-cü ilin sentyabr ayında Azərbaycanın, BQXK və digər qurumlarla əməkdaşlıq çərçivəsində kütləvi məzarlıqlardan 508 insan qalığını çıxardığı bildirilmişdir. Bundan əlavə, Qarabağ regionunda aparılan genişmiqyaslı tikinti işləri zamanı azı 98 nəfərə aid qalıqların aşkar edildiyi qeyd olunmuşdur.[7] Dövlət Komissiyasının məlumatına görə, bu günə qədər 25 nəfərin qalıqları identifikasiya olunmuşdur.

3 BQXK, "Dağlıq Qarabağ: BQXK yenilənmiş itkin düşmüş şəxslər siyahısını təqdim edir", 15 dekabr 2015 https://www.icrc.org/en/document/nagorny-karabakh-icrc-submits-updated-list-missing-persons

4 Yaşar Əliyev, "10 fevral 2022-ci il tarixli Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatındakı Daimi Nümayəndəsinin BMT Baş Katibinə ünvanladığı məktub", BMT Baş Assambleyası və Təhlükəsizlik Şurası, 11 fevral 2022 https://un.mfa.gov.az/files/shares/Letters/76session/a_76_689_E.pdf

5 APA, "Hərbi prokuror: Ermənistanın Azərbaycana təhvil verdiyi insan qalıqlarının sayı açıqlanıb", 18 sentyabr 2023 https://apa.az/en/military/military-prosecutor-reveals-number-of-human-remains-armenia-handed-over-to-azerbaijan-412038

6 № 537/22, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəisi Ayxan Hacızadənin 28 noyabr 2022-ci ildə "Armenpress" xəbər agentliyinə verdiyi müsahibədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın irəli sürdüyü iddialarla bağlı şərhi.

7 APA, "Hərbi prokuror: Ermənistanın Azərbaycana təhvil verdiyi insan qalıqlarının sayı açıqlanıb", 18 sentyabr 2023 https://apa.az/en/military/military-prosecutor-reveals-number-of-human-remains-armenia-handed-over-to-azerbaijan-412038

# III. Azərbaycanda İtkin **Düşmüş Şəxslərin Uçotu**

## 3.1. Hüquqi Çərçivə və Dövlətin Öhdəlikləri

### 3.1.1. Azərbaycanın Beynəlxalq Hüquqi Öhdəlikləri

Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının təmin edilməsinə dair bir sıra mühüm beynəlxalq müqavilə və konvensiyalara qoşulmuş və onları ratifikasiya etmişdir.[8]

| Müqavilə / Konvensiya | İmzalanma Tarixi | Ratifikasiya Tarixi |
|---|---|---|
| Avropa İnsan Hüquqları Konvensiyası (ECHR) | 25 Yanvar 2001 | 2002 |
| Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (ICCPR) | | 13 Avqust 1992 |
| İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (CESCR) | | 13 Avqust 1992 |
| Uşaq Hüquqları Konvensiyası (CRC) | | 13 Avqust 1992 |
| Qadınlara qarşı Bütün Formalarda Ayrı-seçkiliyin Ləğv Edilməsi Konvensiyası (CEDAW) | | 10 İyul 1995 |
| İşgəncələrə və Digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəzalara qarşı Konvensiya (CAT) | | 16 Avqust 1996 |
| Bütün Formalarda Irqi Ayrı-seçkiliyin Ləğv Edilməsi haqqında Beynəlxalq Konvensiya (CERD) | | 16 Avqust 1996 |
| Bütün Miqrant İşçilərin və Onların Ailələrinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiya (CMW) | | 11 Yanvar 1999 |
| Ölüm Cəzasının Ləğvinə yönəlmiş Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın İkinci Fakültativ Protokolu (CCPR-OP2-DP) | | 22 Yanvar 1999 |
| Silahlı münaqişələrdə uşaqların iştirakına dair Uşaq Hüquqları Konvensiyasının Fakültativ Protokolu (CRC-OP-AC) | 08 Sentyabr 2000 | 03 İyul 2002 |
| Uşaqların alqı-satqısı, uşaq fahişəliyi və uşaq pornografiyası-na dair Uşaq Hüquqları Konvensiyasının Fakültativ Protokolu (CRC-OP-SC) | 08 Sentyabr 2000 | 03 İyul 2002 |
| İşgəncələrə qarşı Konvensiyanın Fakültativ Protokolu (CAT-OP) | 15 Sentyabr 2005 | 28 Yanvar 2009 |
| Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya (CRPD) | 09 Yanvar 2008 | 28 Yanvar 2009 |

**Cədvəl 1:** Azərbaycan Respublikasının imzaladığı və ratifikasiya etdiyi beynəlxalq müqavilə və konvensiyalar.

8 Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Müqavilə Qurumları, "Azərbaycanın Ratifikasiya Statusu" https://tbinternet.ohchr.org/_layouts/15/TreatyBodyExternal/Treaty.aspx?CountryID=11&Lang=en

Azərbaycan Bütün Şəxslərin Məcburi İtkin Düşmədən Müdafiəsi üzrə Beynəlxalq Konvensiyanı (ICPPED) hələ ratifikasiya etməsə də, yuxarıda qeyd olunan müqavilələri ratifikasiya etməklə və Avropa Şurasının üzvü kimi, yurisdiksiyası daxilində bütün şəxslərin insan hüquqlarına hörmət etmək, onları qorumaq və təşviq etmək öhdəliyi daşıyır. Bu öhdəliklərə yaşamaq hüququnun qorunması, insanların əsassız olaraq azadlıqdan məhrum edilməməsi, işgəncələrə və qeyri-insani rəftara məruz qalmaması, itkin düşmüş şəxslərin ailələrinin hüquqlarının təmin edilməsi və mümkün hüquq pozuntularının effektiv araşdırılması, hüquqları pozanların məsuliyyətə cəlb olunmasının təmin edilməsi daxildir.

Azərbaycan, dörd Cenevrə Konvensiyasını imzalayıb və ratifikasiya edərək, beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələr zamanı mülki şəxsləri, döyüşçüləri və hərbi əsirləri qorumağı öhdəsinə götürmüşdür. Cenevrə Konvensiyaları fərdlərə dövlətlərdən müəyyən bir hərəkət tələb etmək hüququ verməsə də, onlar müharibə edən tərəflər üçün öhdəliklər yaradır. Bu öhdəliklər arasında, insan qalıqlarının repatriasiyası (geri qaytarılması) da yer alır.

### 3.1.2. Azərbaycanın Milli Hüquqi Çərçivəsi

Sovet İttifaqının dağılması və 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinin bərpası ilə ölkə hüquq sisteminin islahatlarına başlamışdır. 1995-ci ildə qəbul edilmiş yeni Konstitusiya ölkədə prezident respublikası idarəetmə formasını təsbit etmiş və qanunverici, icra və məhkəmə hakimiyyəti arasında səlahiyyət bölgüsünü müəyyən etmişdir.[9]

Azərbaycanın hüquq mənbələri bunlardır:

- Konstitusiya
- Referendum yolu ilə qəbul edilmiş aktlar
- Qanunlar
- Fərmanlar
- Nazirlər Kabinetinin qərarları
- Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələr

Azərbaycan Respublikasının hüquq sisteminin əsasını Konstitusiya təşkil edir. O, beynəlxalq hüququn ölkədaxili tətbiqi üçün adekvat hüquqi baza yaradır və yerli məhkəmələrə Azərbaycanın tərəfdar çıxdığı İnsan Hüquqları sazişlərini tətbiq etmək səlahiyyəti verir.[10]

Lakin itkin düşmüş şəxslər və onların ailələri ilə bağlı mövcud hüquqi çərçivə "pərakəndə və natamam"[11] kimi xarakterizə olunur. Azərbaycanda itkin düşmüş şəxslər məsələsini tənzimləyən ayrıca qanun və ya xüsusi qanunvericilik aktı mövcud deyil. Bununla belə, belə bir qanunvericilik sənədi mühüm əhəmiyyət daşıya bilər, çünki o, itkin düşmüş şəxslərin ailələrinin hüquqlarını təmin etməyə və onların ehtiyaclarını qarşılamağa kömək edə bilər. Məsələn, miras, pensiyalar, nikahın ləğvi, təhsil və səhiyyə ilə bağlı güzəştlərin əldə edilməsi üçün ölüm şəhadətnaməsi almaq zərurəti əvəzinə, itkin düşmüş şəxs barədə rəsmi bəyanat təqdim olunması yolu ilə ailələrin hüquqları qoruna bilər.

Məlumatların qorunması ilə bağlı olaraq, Azərbaycan Şəxsi Məlumatlar Haqqında Qanun[12] qəbul edərək, şəxsi məlumatların, o cümlədən barmaq izləri və DNT profilləri kimi biometrik informasiyanın[13] toplanmasını, saxlanmasını, işlənməsini və ötürülməsini tənzimləmişdir. Ümumilikdə, bu qanun Avropa Şurasının 2016/679 nömrəli ümumi məlumatların qorunması qaydalarının əsas prinsiplərinə uyğun olaraq hazırlanmışdır.[14] Qanuna əsasən, bütün şəxsi məlumat sistemləri Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən qeydiyyata alınmalıdır. Bundan əlavə, qanun şəxsi məlumatların toplanması və işlənməsi, həmçinin bu məlumatların şəxsi kateqoriyadan ictimaiyyətə açıq kateqoriyaya dəyişdirilməsi üçün subyektin razılığının mütləq olması prinsipini vurğulayır.

9 Azərbaycan Respublikasının Konstitusiyası: https://genprosecutor.gov.az/storage pages/1kEdeRNNh7dCP40Ww72ZKqr6YOpeqMqRaEPmtNWh.pdf

10 Ramil Əsgəndərov, "Azərbaycan Respublikasının Hüquq Araşdırmalarına Bələdçi", Global Law & Justice, 14 avqust 2023, https://www.nyulawglobal.org/globalex/Azerbaijan1.html

11 Jeremy Sarkin, "Azərbaycan Hüquq Sistemi və Dövlət Təcrübəsi: Münaqişə Zonalarında İtkin Düşmüş Şəxslərin Axtarışı, Ekshumasiya və İdentifikasiyası ilə Bağlı Məsələlərin Həlli", Caucasus Survey, Cild 10, №2 (2022): 216.

12 "Şəxsi Məlumatlar Haqqında" Azərbaycan Respublikasının Qanunu, № 998-IIIQ, 11 may 2010.

13 "Biometrik Məlumatlar Haqqında" Azərbaycan Respublikasının Qanunu, № 651-IIIQ, 13 iyun 2008.

14 https://www.dataguidance.com/notes/azerbaijan-data-protection-overview

## 3.2. İnstitusional Çərçivə

İtkin düşmüş şəxslərlə bağlı dövlətin rəsmi, qərəzsiz, operativ və şəffaf şəkildə aparılan, faktların müəyyən edilməsinə yönəlmiş effektiv istintaq həyata keçirmək öhdəliyi var. Bu isə əhəmiyyətli resursların ayrılmasını, institusional imkanların gücləndirilməsini və siyasi iradənin nümayiş etdirilməsini tələb edir. Azərbaycanda itkin düşmüş şəxslər məsələsi ilə bir sıra qurumlar və dövlət agentlikləri məşğul olur. Bu bölmədə əsas maraqlı tərəflərin fəaliyyəti ümumi şəkildə təsvir edilir.

### Hərbi Əsirlər, Girovlar və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyası

Birinci Qarabağ müharibəsi kontekstində Hərbi Əsirlər, Girovlar və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyası (bundan sonra Dövlət Komissiyası) 1993-cü ildə prezident fərmanı ilə yaradılmışdır. Bu, əsir və girovların azad olunmasını təşkil etmək, itkin düşmüş şəxsləri tapmaq və bu məsələlər üzrə müxtəlif qurumlar arasında tədbirlərin əlaqələndirilməsini təmin etmək məqsədilə inzibati qurum kimi yaradılmışdır. Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) tərkibində yerləşən bu qurumun rəhbəri eyni zamanda Dövlət Komissiyasının sədri kimi fəaliyyət göstərir. 2001-ci ildə prezident fərmanı ilə Dövlət Komissiyası Prezidentə tabe edildi. 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Dövlət Komissiyasının tərkibində bütün fəaliyyətləri əlaqələndirmək məqsədilə işçi qrupu yaradıldı.

Hazırda bu qurum 19 dövlət qurumu və agentliyin nümayəndələrindən ibarətdir:

- Müdafiə Nazirliyi (MN);
- Baş Prokurorluq;
- Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi (Məhkəmə-Tibbi Ekspertiza Birliyi);
- Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA);
- Xarici İşlər Nazirliyi (XİN);
- Ədliyyə Nazirliyi (ƏN);
- Səhiyyə Nazirliyi (SN);
- Fövqəladə Hallar Nazirliyi (FHN).

Hazırda Dövlət Komissiyası itkin düşmüş şəxslər və onların ailələri ilə bağlı toplanmış bütün məlumatların mərkəzləşdirilməsinə cavabdehdir. Həmçinin ailələrin və şahidlərin ifadələrindən əldə olunan məlumatlar əsasında döyüşlərin baş verdiyi ərazilərdə mümkün məzar yerlərinin siyahısını hazırlayır. Dövlət Komissiyasının hazırkı fəaliyyəti əsasən bu ərazilərdə məzar yerlərinin müəyyənləşdirilməsi, ekshumasiya və insan qalıqlarının tapılması istiqamətində səylərin əlaqələndirilməsinə yönəlib.[15]

### Baş Prokurorluq

Azərbaycan Konstitusiyasına (1995) və Cinayət-Prosessual Məcəlləsinə (2000) əsasən, Baş Prokurorluq müstəqil dövlət qurumu kimi cinayət işlərinin istintaqını və dövlət ittihamının müdafiəsini həyata keçirir.

İnsan hüquqları və qanunun aliliyi standartlarına uyğun olaraq, Azərbaycanda itkin düşmüş şəxslərlə bağlı araşdırmalara Baş Prokurorluq, onun tərkibində isə Azərbaycan Respublikasının Hərbi Prokurorluğu rəhbərlik edir. Hərbi Prokurorluq, digər vəzifələrlə yanaşı, sahə əməliyyatlarının düzgün aparılmasına və sənədləşdirilməsinə cavabdehdir. O, həmçinin insan qalıqlarına dair sübutların zəncirvari qorunmasını təmin edir və Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə insan qalıqlarının müayinəsini sifariş edir.[16]

### ANAMA – Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) 1998-ci ildə “Azərbaycanda ərazilərin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi əməliyyatlarını səmərəli şəkildə təşkil etmək və əlaqələndirmək” missiyası ilə yaradılmışdır.[17] 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra Azərbaycan “2020-ci il müharibəsində geri qaytardığı əraziləri bir milyona yaxın minadan təmizləmək” kimi mühüm bir çağırışla üzləşdi.[18] 2021-ci ildə prezident fərmanı ilə ANAMA dövlət publik hüquqi şəxs statusu aldı və işğaldan azad edilmiş ərazilərin və digər münaqişədən təsirlənmiş bölgələrin minalardan və partlayıcı sursatlardan təmizlənməsinə məsul qurum oldu.

15 ICMP-nin Hərbi Əsirlər, Girovlar və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyası ilə müsahibəsi, 5 iyun 2023.

16 ICMP-nin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə müsahibəsi, 6 iyun 2023.

17 Bax: https://anama.gov.az/en/about-us

18 Zaur Şiriyev, “Azərbaycanın Mina Problemini Həll Etmək”, Beynəlxalq Böhran Qrupu, 31 may 2023 https://www.crisisgroup.org/europe-central-asia/caucasus/azerbaijan/defusing-azerbaijans-landmine-challenge

ANAMA ölkədə aparılan bütün minatəmizləmə əməliyyatlarını əlaqələndirir, nəzarət edir və keyfiyyət təminatı prosesini həyata keçirir. Onun əsas fəaliyyəti 2020-ci ildə azad edilmiş ərazilərin bərpasına yönəlib və bu istiqamətdə ANAMA Müdafiə Nazirliyi (MN), Fövqəladə Hallar Nazirliyi (FHN) və digər qurumlarla birbaşa əməkdaşlıq edir. ANAMA, kütləvi məzarlıqların olması ehtimal edilən ərazilərdə mina təmizlənməsi üçün Dövlət Komissiyasının müraciətlərini icra edir. Həmçinin, ekshumasiya və qalıqların çıxarılması prosesləri zamanı ANAMA həmin yerlərdə fəaliyyətini davam etdirir.

Hazırda ANAMA-nın 1,591 əməliyyat heyəti və əlavə olaraq 484 podratçı və əməkdaşı mövcuddur.[19]

### Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi (Məhkəmə-Tibbi Ekspertiza Birliyi)

Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi (Məhkəmə-Tibbi Ekspertiza Birliyi) Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərir və Prokurorluğun sorğularına cavab verir. Ölkə üzrə 96 filialı və 800 əməkdaşı olan birlik, bütün növ məhkəmə-tibbi ekspertizalarını həyata keçirir. İnsan qalıqları ilə bağlı araşdırmalarda Birlik müxtəlif növ işlərə baxır, o cümlədən tam cəsədlər, yandırılmış və qarışmış qalıqlar, fəlakət qurbanları və tarixi hadisələrlə əlaqəli qalıqlar üzrə ekspertiza aparır. Qarabağla bağlı hallarda, keçən müddətə görə əksər qalıqların skeletləşmiş olması ehtimal edilir və bu səbəbdən antropoloji ekspertiza tələb olunur. Ekspertiza prosesi ölüm səbəbi və formasının müəyyənləşdirilməsi, ətraflı sənədləşdirmə, fotoqeydiyyat və DNT nümunələrinin götürülməsini əhatə edir. Yeni aşkarlanmış insan qalıqları ilə bağlı hallarda isə travmaya aid sübutları aşkar etmək üçün rentgen texnologiyasından istifadə olunur.

Məhkəmə-Tibbi Ekspertiza Birliyi insan qalıqlarının aşkarlanması və ekshumasiya prosesində aktiv iştirak edir. Bundan əlavə, Birlik Kriminalistika şöbəsinin tərkibində yalnız müharibə ilə bağlı işlərə baxmaq üçün ayrıca bir laboratoriya yaradıb. Qarabağ bölgəsindən və digər münaqişədən təsirlənmiş ərazilərdən olan işlər üzərində təxminən 10 nəfərdən ibarət bir komanda, o cümlədən beş məhkəmə-tibbi kriminalist və beş texniki köməkçi çalışır.[20]

Məhkəmə-Tibbi Ekspertiza Birliyi insan qalıqlarının aşkarlanması və ekspertizası sahəsində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən təlim keçmişdir. Birlik 2001-ci ildən etibarən Genetik Şöbə fəaliyyətini davam etdirir və DNT profilinin müəyyən edilməsi imkanlarına malikdir. Bu, cinayət və itkin düşmüş şəxslərlə bağlı araşdırmalara dəstək məqsədi daşıyır. Bununla belə, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı işlərin işlənməsi Birliyin səlahiyyətinə daxil deyil.[21]

### Genetik Laboratoriya, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Hospitalı

2022-ci ildə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Hospitalında yalnız Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı insan identifikasiyası işlərinə baxmaq məqsədilə Genetik Laboratoriya yaradılmışdır. Laboratoriyanın məlumatına görə, təxminən 10,900 ailə referans nümunəsi, o cümlədən əvvəllər DİN-in DNT laboratoriyası tərəfindən işlənmiş təxminən 1,000 nümunə profil olunmuş və xüsusi olaraq yaradılmış məlumat bazasında saxlanılmışdır.

27 dekabr 2022-ci il tarixli dəyişikliklərə əsasən, Azərbaycan Respublikasının dövlət daktiloskopik və genom qeydiyyatı haqqında qanununun icrası ilə bağlı Prezident Fərmanı çərçivəsində DTX Hospitalının Genetik Laboratoriyası hüquqi olaraq Dövlət Komissiyası, Hərbi Prokurorluq və Məhkəmə-Tibbi Ekspertiza Birliyi ilə əlaqəli şəkildə münaqişəyə aid işləri emal etmək səlahiyyətinə malikdir. Bundan əlavə, Hospitalda nümunələrin qəbul və saxlanması üçün ayrıca Patologiya Laboratoriyası yaradılmışdır, daha sonra nümunələr Genetik Laboratoriyaya ötürülür.

DTX Hospitalının Genetik Laboratoriyası geniş imkanlara malikdir və müxtəlif avtomatlaşdırılmış avadanlıqlarla təchiz olunmuşdur. Laboratoriya itkin düşmüş şəxslərlə bağlı referans nümunələr üzrə Short Tandem Repeat (STR) profilinin müəyyən edilməsi metodlarını tətbiq edir, bunlar:

- BSD puncher istifadə edərək, xüsusi referans

19 ICMP-nin Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə müsahibəsi, 8 iyun 2023.
20 ICMP-nin Məhkəmə-Tibbi Ekspertiza Birliyinin Direktoru və Kriminalistika Şöbəsinin rəhbəri ilə müsahibəsi, 8 iyun 2023.
21 ICMP-nin Məhkəmə-Tibbi Ekspertiza Birliyinin Direktoru və Biologiya Şöbəsinin rəhbəri ilə müsahibəsi, 13 iyun 2023.

nümunələr laboratoriyasında nuklein turşularının sürətli analizi (FTA) kartlarının yarı-avtomatik deşilməsi;

- Machery-Nagel şirkətinin maye əsaslı DNT, RNT və protein təmizləmə dəsti və Hamilton NIMBUS avtomatik maye emal cihazı vasitəsilə avtomatlaşdırılmış DNT çıxarılması (ayrılması) – bu proses ayrı bir DNT çıxarma/PCR hazırlıq laboratoriyasında aparılır;
- Zərurət olduqda, DNT miqdarının müəyyən edilməsi Thermofisher Qubit cihazı ilə həyata keçirilir;
- Thermofisher GlobalFiler STR gücləndirmə dəsti ilə avtomatlaşdırılmış PCR plitə hazırlığı və Hamilton NIMBUS avtomatik maye emal cihazı vasitəsilə PCR gücləndirməsi, həmçinin Thermofisher ProFlex və ya Veriti Pro termal tsikl qurğularından istifadə edilir. Hazırda alternativ autosomal STR dəsti yoxdur və mtDNT və ya Y-STR analiz üsulları tətbiq edilmir. Referans nümunələr üçün yalnız bir dəfə gücləndirmə aparılır;
- Thermofisher 3500 Genetik Analizator vasitəsilə kapilyar elektroforez prosesi post-PCR laboratoriyasında icra edilir;
- GeneMapper ID-x proqram təminatı ilə genetik analiz həyata keçirilir (istifadə olunan versiya məlum deyil). Hazırda iki əməkdaş DNT profilinin analizində səriştəli hesab edilir.

Genetik Laboratoriya, məhkəmə-tibbi ekspertiza laboratoriyalarına tətbiq edilən beynəlxalq standart olan ISO17025[22] akkreditasiyasını almaq üçün xüsusi Keyfiyyət İdarəetmə Sistemi hazırlamaq üzərində işləyir. Laboratoriya hazırda ISO17025 keyfiyyət təminatı tələblərinin əksəriyyətinə uyğun fəaliyyət göstərir, bunlara aşağıdakılar daxildir:

- Bütün nümunələr emal üçün unikal, anonim barkod alır;
- Bütün nümunələr laboratoriyaya daxil olarkən "Sübutun Mühafizəsi Zənciri" (Chain of Custody) sənədi ilə birlikdə qəbul edilir;
- Bütün təsdiqlənmiş proseslər üçün sənədləşdirilmiş Standart Əməliyyat Prosedurları (SOP) mövcuddur;
- Bütün əməkdaşlar, səriştəli hesab edilməzdən əvvəl, rəsmi təlim keçməlidir;
- Nümunələrlə paralel olaraq partiya nəzarət sistemləri də emal edilir;
- Laboratoriya xarici ixtisas sınaqlarında iştirak edir;
- Daxili audit prosesi həyata keçirilmişdir;

### Digər Aidiyyəti Qurumlar

Münaqişə nəticəsində itkin düşmüş şəxslərlə bağlı fəaliyyət göstərən digər aidiyyəti qurumlara gəlincə: Müdafiə Nazirliyi (MN) 2020-ci ildə azad edilmiş ərazilərdə aparılan fəaliyyətlərdə, o cümlədən insan qalıqlarının aşkarlanması və ekshumasiya proseslərində fəal iştirak edir; Ədliyyə Nazirliyi (ƏN) tibbi olmayan məhkəmə ekspertizalarına cavabdehdir; Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu (IAEA), əsasən tarixi və arxeoloji yerlərin arxeoloji və antropoloji tədqiqatlarına yönəlmiş bir elmi-tədqiqat institutu olaraq, münaqişədən təsirlənmiş ərazilərdə məzar yerlərinin ekshumasiya edilməsi üzrə pilot layihədə fəal iştirak edir.

## 3.3. İtkin Düşmüş Şəxslərlə Bağlı Araşdırma Prosedurları və Digər Tədbirlər

### 3.3.1. İtkin Şəxslə Bağlı Məlumatlandırma

Birinci Qarabağ müharibəsindən sonra dövlət qurumları və vətəndaş cəmiyyətinin nümayəndələri də daxil olmaqla bir neçə təşkilat itkin düşmüş şəxslər və onların ailələri ilə bağlı məlumat toplamağa başladı. Dövlət Komissiyasının yaradılması ilə bu məlumatlar mərkəzləşdirildi. 2007-ci ildə Dövlət Komissiyası və Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) birlikdə itkin düşmüş şəxslərlə bağlı antemortem (AM) məlumatları və ailə referans nümunələrini (FRS) toplamaq üçün əməkdaşlığa başladılar. Hazırda Dövlət Komissiyasının bazasında Birinci Qarabağ müharibəsindən 3,890 nəfər, İkinci Qarabağ müharibəsindən 6 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Bu bazada itkin şəxslərin demoqrafik məlumatları, fiziki xüsusiyyətləri və tanınma əlamətləri, həmçinin itkin düşmə şəraitinə dair məlumatlar saxlanılır.

Bu əməkdaşlıq çərçivəsində 2014-cü ildən etibarən təxminən 10,900 ailə referans nümunəsi (FRS) toplanmışdır. Bu nümunələr 2022-ci ilə qədər Dövlət Komissiyası tərəfindən qorunurdu. 2022-ci ildə nümunələr Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Hospitalının Genetik Laboratoriyasına təhvil verilmişdir.

22 ISO 17025 beynəlxalq standartlara uyğun test və kalibrləmə nəticələri təqdim etmək üçün bir laboratoriyanın bacarıq və səriştəyə malik olduğunu sübut edən keyfiyyət idarəetmə sistemidir.

Bütün nümunələr 2022-ci ilin sentyabrı və 2023-cü ilin martı arasında işlənmişdir və alınan DNT profilləri Genetik Laboratoriyada, Dövlət Komissiyasının səlahiyyəti altında saxlanılır.

### 3.3.2. Məzarlıqların Yerlərinin Müəyyənləşdirilməsi, Ekshumasiya və Qalıqların Aşkarlanması

İtkin düşmüş şəxslərin ailələrindən və şahidlərdən toplanmış məlumatlar əsasında, Dövlət Komissiyası 200-dən çox məkanı – itkinlərin sonuncu dəfə görüldüyü yerləri və mümkün məzarlıqları qeydə almışdır. İkinci Qarabağ müharibəsinin 2020-ci ildə başa çatması ilə Azərbaycan Respublikası bu məkanların bir çoxuna - Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Kəlbəcər və Laçın rayonlarında yenidən çıxış əldə etdi. Dövlət Komissiyasının məlumatına görə, 2020-ci ildən bu günədək aparılmış ekshumasiya işləri nəticəsində 422 insan qalıqları aşkarlanmışdır.

2022-ci ildə Dövlət Komissiyası qalıqların aşkarlanması üzrə Pilot Layihəyə start verdi. 2023-cü ilin iyun ayına qədər bu layihə çərçivəsində üç məkan və doqquz sahədə ən azı 33 nəfərin qalıqları aşkarlanmışdır.[23] Bu əməliyyatlar Dövlət Komissiyası tərəfindən aparılan araşdırmalara və ya tikinti işləri zamanı aşkarlanmış məlumatlara əsasən başlanır və əlaqələndirilir. Dövlət Komissiyası dəqiq GPS koordinatlarını Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) ötürür və ərazilərin mina təmizlənməsini tələb edir. Hərbi Prokurorluğun icazəsi ilə Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi ekshumasiya prosesini həyata keçirir. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu (IAEA) bu prosesdə ekspert dəstəyi verir. Dövlət Komissiyası, ANAMA, BQXK və digər aidiyyəti qurumların nümayəndələri ekshumasiya əməliyyatlarında iştirak edirlər.

Məhkəmə-Tibbi Ekspertiza Birliyi sübutların zəncirvari qorunmasını təmin edir, sahə hesabatları və fotoqrafik sübutlar hazırlayaraq onları Hərbi Prokurorluğa və Dövlət Komissiyasına təqdim edir, və qalıqların saxlanması üçün əsas müəssisəsi Bakıda yerləşən Məhkəmə-Tibbi Ekspertiza Birliyinə təhvil verilir.

Azərbaycanın öncə işğal olunmuş ərazilərə çıxış əldə etməsi, xüsusilə Birinci Qarabağ müharibəsi zamanı törədilmiş iddia edilən cinayətlərlə əlaqəli məkanlara çıxış qazanması, bu sahədə aparılan araşdırmaların ictimaiyyət tərəfindən böyük maraqla izlənəcəyini göstərir.

### 3.3.3. Məhkəmə-Tibbi Ekspertiza

İnsan qalıqları qəbul edildikdən sonra ekspertiza prosesi hadisənin sənədləşdirilməsi, DNT nümunələrinin götürülməsi, Ölüm səbəbi və formasının müəyyən edilməsi; zərurət olduqda, travmaya aid sübutların aşkarlanması üçün rentgen texnologiyasının tətbiqi əhatə edir.

Qarabağla bağlı münaqişəyə aid işlərin ekspertizası üçün Məhkəmə-Tibbi Ekspertiza Birliyi Kriminalistika Şöbəsinin tərkibində xüsusi laboratoriya və komanda yaradıb. Bu komanda yalnız bu işlər üzərində işləyir. Bütün işlər Dövlət Komissiyasının təlimatları və Hərbi Prokurorluğun icazəsi alınana qədər qeyri-müəyyən müddətə saxlanılır.

Kriminologiya Şöbəsi işlərin qeydiyyat sistemini aparır və iş nömrələrinin təyin edilməsi vasitəsilə izlənilməsini təmin edir: Məhkəmə-Tibbi Ekspertiza Birliyi tərəfindən verilən giriş nömrəsi, hadisə yeri kodu, bağlama nömrəsi və skelet nömrəsi, eləcə də hadisənin baş verdiyi yerin adı və tarixi.

Məhkəmə-Tibbi Ekspertiza Birliyi insan qalıqlarından DNT analizi üçün nümunələrin götürülməsinə də cavabdehdir. Hər bir iş üzrə təxminən üç nümunə toplanır.

Məhkəmə-Tibbi Ekspertiza Birliyi Dövlət Komissiyası ilə koordinasiyalı şəkildə mütəmadi olaraq qalıqların aşkarlanması prosesində iştirak edir. Lakin Dövlət Komissiyası İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyasına (ICMP) məlumat verib ki, 2020-ci ildən bəri Ermənistan Respublikası Birinci Qarabağ müharibəsi ilə bağlı 120 nəfərin qalıqlarını Azərbaycana təhvil verib, lakin Azərbaycan bu qalıqların aşkarlanması prosesində iştirak etməyib.

### 3.3.4. DNT Analizi və Identifikasiya

Əvvəllər Azərbaycan itkin düşmüş şəxslərin qalıqlarından və ailə üzvlərinin təqdim etdiyi referans nümunələrdən götürülmüş DNT nümunələrinin

23 ICMP-nin qiymətləndirməsi çərçivəsində 9 iyun 2023-cü il tarixində Füzuli rayonunda Pilot Layihə çərçivəsində işlənmiş üç fərqli məkan ziyarət edilmişdir.

işlənməsi üçün bəzi cəhdlər etmişdir. İtkin düşmüş şəxslərin ailələrindən toplanmış təxminən 1,000 referans nümunəsi və az sayda sümük nümunəsi Daxili İşlər Nazirliyinin (DİN) laboratoriyasına genetik işlənmə üçün göndərilmişdir. Ancaq aparılan testlərdən aydın nəticələr əldə olunmamışdır.

2022-ci ildə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Hospitalının tərkibində yalnız Birinci və İkinci Qarabağ müharibələrində itkin düşmüş şəxslərlə bağlı işlər üçün xüsusi Genetik Laboratoriya yaradıldıqda, DNT nümunələrinin işlənməsi mümkün oldu. Dövlət Komissiyası və BQXK tərəfindən 2014-cü ildən etibarən toplanmış təxminən 10,900 ailə referans (genetik) nümunəsi altı ay ərzində işlənmişdir.[24]

Qiymətləndirmə zamanı post-mortem (PM) nümunələrinin heç biri işlənməmişdi. Səlahiyyətlilərin bildirdiyinə görə, bu gecikmə "Silahlı münaqişə nəticəsində itkin düşmüş şəxslər haqqında düzəliş" adlı qanun layihəsinin qəbul edilməsini gözləmələri ilə bağlı idi. Bu düzəliş qəbul edildikdən sonra DNT analizlərinə başlamaq mümkün olacaq. İlk mərhələdə sümük nümunələri Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində seçiləcəkdir. Hərbi Prokurorluğun icazəsi və Dövlət Komissiyası ilə koordinasiya şəraitində sümük nümunələri DTX Hospitalının Patologiya Laboratoriyasına göndəriləcək. Orada nümunələr qəbul ediləcək, saxlanılacaq, yuyulacaq, təmizlənəcək, qurudulacaq və toz halına salınacaq, daha sonra DNT profillərinin əldə edilməsi üçün Genetik Laboratoriyaya göndəriləcəkdir.

Azərbaycan hökümətinin qiymətləndirmə sonrası verdiyi məlumata əsasən, 27 dekabr 2022-ci il tarixli Prezident Fərmanına edilən düzəlişə uyğun olaraq, 2018-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Qanunun icrası çərçivəsində DTX Hospitalının Genetik Laboratoriyasına rəsmi fəaliyyət icazəsi verilmişdir. Bu hesabatın tamamlanması zamanı artıq 25 insan qalığı identifikasiya olunmuşdu.

Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi DNT analizi, diş və barmaq izi müqayisəsi əsasında son identifikasiyanı aparır. Əlavə identifikasiya üsulları (ikincil identifikatorlar), məsələn, sınıqlar və ya digər tanınma əlamətləri də nəzərə alınır və sənədləşdirilir. Nəticələr Prokurorluğa göndərilir və identifikasiya nəticələrinin rəsmi təsdiqi üçün icazə alınır. Ölüm şəhadətnaməsi ya Məhkəmə-Tibbi Ekspertiza Birliyi, ya da Prokurorluq tərəfindən Qeydiyyat Şöbəsi vasitəsilə rəsmiləşdirilir.

### 3.3.5. Ailələrin Məlumatlandırılması və Dəstəklənməsi

Məhkəmə-Tibbi Ekspertiza Birliyi tərəfindən yekun rəy verildikdən sonra, Hərbi Prokurorluğun müstəntiqi qalıqların identifikasiyasını təsdiqləyə bilər. Bu təsdiqdən sonra ailələrə məlumat verilir və qalıqlar onlara təhvil verilə bilər.[25]

Hazırda ailələrin məlumatlandırılması üçün dəqiq prosedur və ya protokol mövcud deyil. Lakin gözlənilir ki, bu prosesdə ailələrlə əlaqədə olan əsas qurum kimi Dövlət Komissiyası iştirak edəcək.

### 3.3.6. İtkin Düşmüş Şəxslərin və Qohumlarının Məlumatlarının İdarə Edilməsi

Qiymətləndirmə müddətində ICMP, itkin düşmüş şəxslərlə bağlı məlumatların necə qeydə alındığını, idarə edildiyini, təhlil olunduğunu, saxlanıldığını və paylaşdırıldığını öyrənməyə çalışmışdır. Ümumiyyətlə, bu funksiyaların yerinə yetirilməsinə imkan verən elektron sistemlər mövcud deyil.
Dövlət Komissiyasında itkin düşmüş şəxslərlə bağlı bütün qeydlər kağız formatında saxlanılır. Dövlət Komissiyası hazırda əlində olan məlumatların elektron ehtiyat nüsxəsini yaratmaq prosesindədir. Bundan əlavə, bəzi hallara dair əsas məlumatlar Excel formatında reyestrdə saxlanılır. İnternetə qoşulu olmayan kompüterdə müəyyən məlumat bazası mövcuddur. Dövlət Komissiyası, Dövlət Kartoqrafiya Agentliyi ilə əməkdaşlıq çərçivəsində mümkün gizli dəfn yerlərinin GPS koordinatlarını əks etdirən xəritə (fiziki və elektron formatda) hazırlamışdır.

Qalıqların ekspertizası ilə bağlı məlumatların idarə edilməsi üçün Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi xüsusi proqram təminatından istifadə etmir. Hesabatlar məhkəmə-tibbi ekspert tərəfindən Microsoft Word proqramında tərtib edilir.

24 ICMP-nin Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Hospitalı ilə müsahibəsi, 13 iyun 2023.

25 ICMP-nin Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə müsahibəsi, 6 iyun 2023.

DTX Hospitalının Genetik Laboratoriyasında nümunələrin hər mərhələdə izlənməsi üçün ABŞ-Türkiyə şirkətinə məxsus CLIMS (Cinayət Laboratoriyası Məlumat İdarəetmə Sistemi) istifadə olunur. Hazırda sistemdə ailə referans nümunələrdən əldə edilmiş DNT məlumatları saxlanılır.

Bəzi digər dövlət qurumlarının da itkin düşmüş şəxslərlə bağlı öz reyestrləri mövcuddur. Məsələn, Müdafiə Nazirliyi (MN) yalnız itkin düşmüş hərbi qulluqçular haqqında məlumat aparır və mülki şəxsləri daxil etmir.[26] Bununla belə, aidiyyəti qurumlar Dövlət Komissiyası ilə məlumat mübadiləsi apardıqlarını və reyestrlərini vaxtaşırı yenilədiklərini təsdiqləyiblər.

Dövlət Komissiyası hazırda Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) dəstəyi ilə “Resolve” adlı itkin düşmüş şəxslər üzrə elektron məlumat bazasını yaratmaq prosesindədir. ICMP, “Resolve” proqram təminatının hüququn aliliyi prinsiplərinə uyğun olaraq itkin düşmüş şəxslərin uçotunun aparılması üçün nə dərəcədə uyğun olduğunu dəqiq qiymətləndirə bilmir. BQXK-nin məlumatına görə, proqram əsasən DNT və ya barmaq izi, diş qeydləri kimi digər identifikatorların natamam, etibarsız və ya əlçatan olmadığı mürəkkəb hallarda daha faydalı ola bilər.[27] Əgər DNT əsas identifikator kimi istifadə olunacaqsa, o zaman “Resolve” proqram təminatının faydası məhdud olacaq, çünki bu proqram DNT müqayisə (matching) imkanları təqdim etmir.

## 3.4. Vətəndaş Cəmiyyəti və Ailə Assosiasiyaları

Birinci Qarabağ müharibəsindən bəri Azərbaycanın bir sıra vətəndaş cəmiyyəti təşkilatları insan hüquqlarının qorunması ilə bağlı müxtəlif məsələlər üzərində çalışıblar. Bunlara əsir və girovların azad edilməsi, itkin düşmüş şəxslərlə bağlı işlərin sənədləşdirilməsi, eləcə də münaqişənin həlli yolunda erməni vətəndaş cəmiyyəti nümayəndələri və beynəlxalq təşkilatlarla dialoqun və əməkdaşlığın təşviqi daxildir.[28]

Hərbi münaqişədə həlak olanların (şəhidlərin), əsirlərin və girovların ailələrini birləşdirən bəzi assosiasiyalar mövcuddur.[29] Bu assosiasiyaların narahatlıq ifadə etdiyi əsas məsələlərdən biri, hərbi qulluqçuların itkin düşmüş ailələrinə göstərilən dəstəklə müqayisədə mülki itkinlərin ailələrinə yetərincə dəstək verilməməsidir.[30] Bundan əlavə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi dəstəyi və müavinətlərinə çıxış əldə etmək mürəkkəb məhkəmə prosedurlarını tələb edir. Ailə assosiasiyaları hesab edirlər ki, rəsmi siyasətin formalaşdırılmasında ailələrin fikirlərinin nəzərə alınması üçün daha çox iş görülməlidir.

Dövlət Komissiyası bəzi vətəndaş cəmiyyəti təşkilatları ilə fəal əməkdaşlıq etdiyini bildirib. Bunlara “Qarabağ İtkin Ailələri” İctimai Birliyi və “Müharibə Veteranı Qadınlara Sosial Yardım” İctimai Birliyi daxildir. “Qarabağ İtkin Ailələri” İctimai Birliyi Dövlət Komissiyasının İşçi Qrupu ilə eyni binada yerləşir.

ICMP qiymətləndirmə missiyası zamanı, 1980-ci illərin sonlarında Sovet Ermənistanından köçkün düşən şəxslərin nümayəndələri ilə görüşərək, Ermənistan qaçqını olan azərbaycanlıların üzləşdiyi problemlər, o cümlədən itkin düşmüş şəxslərlə bağlı çətinliklər barədə məlumat alıb.

Ailə assosiasiyalarından başqa, bir sıra vətəndaş cəmiyyəti təşkilatları da itkin düşmüş şəxslərlə bağlı məsələlərlə məşğul olur. Helsinki Vətəndaş Assambleyası (HCA) sülh və demokratiyaya yönəlmiş beynəlxalq qeyri-hökumət təşkilatı olaraq Praqada yaradılmışdır. 1992-ci ildə HCA-nın Azərbaycandakı filialı qeyri-hökumət təşkilatı kimi qeydiyyatdan keçmişdir. Birinci Qarabağ müharibəsi zamanı

26 ICMP-nin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (MN) ilə müsahibəsi, 5 iyun 2023.

27 Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK), “Resolve Platforması: İtkin Düşmüş Şəxslər və İnsan Qalıqları Haqqında Məlumatların İdarə Edilməsi Üçün Veb-əsaslı Həll”, səh. 3, 20 avqust 2021.

28 Azərbaycanda itkin düşmüş hərbi qulluqçulara “şəhidlər” (martyrs) deyilir.

29 Yerevan Press Club və Yeni Nəsil, “Ermənistan-Azərbaycan: Dialoq Üçün Yeni Modellərin Axtarışı”, Yerevan, 2019, https://ypc.am/wp-content/uploads/2019/09/Armenia-Azerbaijan-Research_eng.pdf

30 2018-ci ildə yayımlanan bir xəbər məqaləsinə əsasən, Azərbaycan Prezidenti fərman imzalamışdır ki, “Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş və 2 avqust 1997-ci ildən əvvəl hərbi əməliyyatlar zamanı itkin düşmüş hərbi qulluqçuların varislərinə 11,000 manat (təxminən 6,500 ABŞ dolları) məbləğində birdəfəlik ödəniş veriləcəkdir”, https://www.azernews.az/nation/130789.html

HCA-Azərbaycan bütün bölgələrdə itkin düşmüş şəxslər, əsir və girovlar haqqında məlumat toplamağa başlamış və bu məlumatları sonradan Dövlət Komissiyası ilə bölüşmüşdür. HCA-Azərbaycan, HCA-Ermənistan ilə əməkdaşlıq edərək əsir düşmüş şəxslərin siyahısını nəşr etdirmiş və girovların azad edilməsi üçün fəaliyyət göstərmişdir.

Son dövrlərdə HCA-Azərbaycan 2020-ci ildə Azərbaycanın nəzarətinə qaytarılmış ərazilərdə, xüsusilə Şuşa şəhəri ətrafında mümkün məzarlıqların yerləri haqqında Dövlət Komissiyasına məlumat təqdim edib. Hazırda HCA-Azərbaycan itkin düşmüş şəxslərə həsr olunmuş memorialın yaradılması məsələsini müdafiə edir.[31] Dövlət Komissiyası bu məsələni Nazirlər Kabineti qarşısında qaldırıb.

Cənubi Qafqaz və digər ölkələrdən olan müxtəlif millətlərin nümayəndələrindən ibarət Beynəlxalq İşçi Qrup (IWG)[32], da münaqişə ilə bağlı humanitar fəaliyyətlər həyata keçirmişdir. IWG həm Azərbaycanda saxlanılan erməni hərbi əsirləri, həm də Ermənistanda saxlanılan azərbaycanlı hərbi əsirləri ziyarət etmişdir. Bu qurum müharibə əsirlərinin və girovların azad edilməsinə, onların saxlanma şəraitinin yaxşılaşdırılmasına, itkin düşmüş şəxslərin izinə düşməyə və tərəflər arasında kommunikasiyanın qurulmasına yönəlmiş fəaliyyətlər həyata keçirmişdir.

## 3.5. Beynəlxalq Təşkilatların Rolu

İllər ərzində beynəlxalq təşkilatlar və xarici aktorlar sülhün əldə olunması və itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi istiqamətində müxtəlif cəhdlər göstərmişlər.

Avropa Şurası (AŞ)[33] çərçivəsində 2007-ci ildə Avropa Şurası Parlament Assambleyası (AŞPA) “Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələri nəticəsində Ermənistan, Azərbaycan və Gürcüstanda itkin düşmüş şəxslər” adlı hesabat təqdim etmişdir. Bu hesabatda qeyd edilir ki, itkin düşmüş şəxslər məsələsinin həll olunmaması ailələr üçün ağır iztirablara səbəb olur və bölgədə gərginliyi artıraraq münaqişələrin sülh yolu ilə həllinə mane olur.[34] Həmin il AŞPA 1553[35] və 1797[36] nömrəli tövsiyələri qəbul etmişdir.

2021-ci ildən etibarən Avropa İttifaqının (Aİ) Avropa Şurası[37] Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında bir neçə yüksək səviyyəli görüşün təşkilinə vasitəçilik etmişdir. Bu görüşlər Ermənistan və Azərbaycan arasında sülh sazişinin müzakirəsi məqsədini daşıyır.

Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) 1990-cı illərin əvvəllərindən etibarən Azərbaycanda fəaliyyət göstərir. 2007-ci ildən Dövlət Komissiyası ilə əməkdaşlığa başlayaraq antemortem (AM) məlumatların toplanması və Dövlət Komissiyasına təlimlərin keçirilməsi üzrə işlər aparmışdır. Bu günə qədər təxminən 10,900 ailə referans nümunəsi toplanmışdır. BQXK həmçinin itkin düşmüş şəxslərin ailələrinə psixososial

31 ICMP-nin Helsinki Vətəndaş Assambleyası (HCA) ilə 15 iyun 2023-cü il tarixində keçirdiyi müsahibə və 17 avqust 2023-cü ildə keçirilmiş əlavə onlayn görüş.

32 ICMP-nin Qarabağ üzrə Beynəlxalq İşçi Qrupu (IWG) ilə müsahibəsi, 26 iyul 2023.

33 Avropa Şurası (CoE) 1949-cu ildə demokratiyanı, insan hüquqlarını və hüququn aliliyini təşviq etmək məqsədilə yaradılmış beynəlxalq təşkilatdır. Strasburqda yerləşən bu qurum, Avropa İnsan Haqları Konvensiyasına və Avropa İnsan Haqları Məhkəməsinə ev sahibliyi edir. Bax https://www.coe.int/en/web/portal/home

34 Avropa Şurası Parlament Assambleyası: “Sənəd 11196, Ermənistan, Azərbaycan və Gürcüstanda Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələri nəticəsində itkin düşmüş şəxslər”, 7 mart 2007 https://assembly.coe.int/Documents/WorkingDocs/2007/EDOC11196.pdf

35 Avropa Şurası Parlament Assambleyası: “Qətnamə 1553, Ermənistan, Azərbaycan və Gürcüstanda Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələri nəticəsində itkin düşmüş şəxslər”, 24 may 2007 https://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17541&lang=EN.

36 Avropa Şurası Parlament Assambleyası: “Tövsiyə 1797, Ermənistan, Azərbaycan və Gürcüstanda Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələri nəticəsində itkin düşmüş şəxslər”, 24 may 2007, https://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=17546&lang=en

37 Avropa Şurası 1974-cü ildə Avropa İttifaqına (Aİ) üzv dövlətlərin dövlət və hökumət başçıları arasında müzakirələr aparmaq üçün qeyri-rəsmi bir forum kimi yaradılmışdır. Hazırda Avropa Şurası Aİ-nin ümumi siyasi istiqamətini və prioritetlərini müəyyənləşdirir. Daha ətraflı məlumat üçün bax: https://www.consilium.europa.eu/en/european-council/

dəstək və hüquqi xidmətlərə çıxış imkanları təmin etmişdir. Məhkəmə-Tibbi Ekspertiza Birliyi, ANAMA və məhkəmə-tibbi ekspertiza ilə məşğul olan digər qurumlarla birgə məhkəmə-tibbi standart əməliyyat prosedurlarının inkişafına töhfə vermişdir. Son dövrlərdə Dövlət Komissiyası tərəfindən əlaqələndirilən Pilot Layihənin iştirakçılarından biri kimi BQXK 2020-ci ildə Azərbaycanın nəzarətinə qaytarılmış ərazilərdə axtarış və ekshumasiya əməliyyatlarını monitorinq etmişdir.[38]

# IV. İtkin Düşmüş Şəxslərlə **Bağlı Çətinliklər**

Azərbaycan Respublikasının Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində itkin düşmüş şəxslərin taleyini müəyyən etmək üçün həyata keçirdiyi genişmiqyaslı səylərlə yanaşı, ICMP və İrəvandakı tərəfdaşlar qiymətləndirmə müddətində bu sahədə bir sıra çətinliklər və mövcud mexanizmlərdə boşluqlar aşkar etmişdir.

## 4.1. Hüquqi və İnstitusional Çərçivə

- Azərbaycan "Bütün Şəxslərin Məcburi Yoxa Çıxmadan Qorunması üzrə Beynəlxalq Konvensiyanı" (ICPPED) ratifikasiya etməyib. Bu konvensiya itkin düşmüş şəxslərlə bağlı qanunvericilik tədbirləri və məlumatların qorunması üçün vacib istiqamətlər təqdim edir.
- Dövlət Komissiyasının İşçi Qrupu hazırda cəmi altı nəfərdən ibarətdir. Bu qrup 19 hökumət qurumu və digər tərəfdaşlarla koordinasiya aparmağa məsuldur. Eyni zamanda, qrup axtarış və qalıqların bərpası üzrə yerlərin seçilməsi və prioritetləşdirilməsi kimi müxtəlif fəaliyyətlərin planlaşdırılması və icrasını təşkil edir. Lakin bu işləri həyata keçirmək üçün lazımi ixtisasa malik kadrlar mövcud deyil.Dövlət Komissiyasının heç bir üzvü hərbi əsirlərin, girovların və ya itkin düşmüş şəxslərin ailələrinin nümayəndələri, yaxud vətəndaş cəmiyyətinin təmsilçiləri deyil.

## 4.2. Araşdırmalarda və Məhkəmə-Tibbi Ekspertiza Prosesində Tətbiq Edilən Prosedurlar

### İtkin Düşmüş Şəxslər Üzrə Məlumat Bazaları

- İtkin düşmüş şəxslərə dair məlumatlar və reyestrlər müxtəlif dövlət qurumları arasında parçalanmış vəziyyətdədir;
- Bütün aidiyyəti məlumatları ehtiva edən vahid paylaşılmış məlumat sistemi mövcud deyil;
- Məlumat mübadiləsi mexanizmləri fərdi məlumatların qorunmasını təmin etmir;
- Məlumatlar kağız nüsxələrdə və ya fərdi Word və Excel sənədlərində saxlanılır, bu isə mövcud məlumatların səmərəli istifadəsinə və təhlilinə mane olur.

### İnsan Qalıqlarının Aşkarlanması və Bərpa Əməliyyatları

- Qarabağ ərazilərində böyük miqdarda minaların olması itkin düşmüş şəxslərin axtarışı üçün yerlərin araşdırılmasını ləngidən əsas maneələrdən biridir;
- Hazırda Dövlət Komissiyası axtarış və bərpa əməliyyatları üçün araşdırılacaq yerləri müəyyən edir. Lakin Dövlət Komissiyasında bu iş üçün strateji yanaşmanı həyata keçirə biləcək ixtisaslaşmış kadrlar mövcud deyil (məsələn, peyk görüntülərinin təhlili yolu ilə);
- Kompleks hallar, məsələn, qarışmış, yandırılmış və ya parçalanmış insan qalıqlarının aşkarlanması və bərpası üçün konkret format və ya əməliyyat prosedurları tətbiq edilmir.

38 ICMP 6 iyun 2023-cü ildə BQXK ilə müsahibələr və 22 iyun 2023-cü ildə uzaqdan izləmə.

### İnsan Qalıqlarının Məhkəmə-Tibbi Ekspertizası

- Məhkəmə-Tibbi Ekspertiza Birliyinin (Forensic Medical Association) əməkdaşları məhkəmə-tibbi ekspertiza sahəsində kifayət qədər təcrübəyə malik olsalar da, skeletləşmiş, qarışmış, yandırılmış və ya parçalanmış insan qalıqlarının işlənməsi üzrə məhdud təcrübəyə sahibdirlər;
- ICMP, Məhkəmə-Tibbi Ekspertiza Birliyinin skeletləşmiş, qarışmış, yandırılmış və ya parçalanmış qalıqların ekspertizası üçün standart əməliyyat protokollarını tətbiq edib-etmədiyini müəyyən edə bilməmişdir;
- Məhkəmə-Tibbi Ekspertiza Birliyinin mütəxəssisləri mövzu ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən ölkə daxilində və xaricdə təşkil edilmiş təlimlərdə müntəzəm iştirak etmişlər. Bununla belə, Məhkəmə-Tibbi Ekspertiza Birliyində kadrların təlimi və peşəkar inkişafı üçün strateji yanaşmanın hazırlanması hələ də həyata keçirilməmişdir.

### DNT və Uyğunlaşdırma

- 2023-cü ilin iyun ayına qədər DTX Hospitalının Genetik Laboratoriyası post-mortem (PM) nümunələrin işlənməsinə başlamamışdır. Xüsusilə deqradasiyaya uğramış insan qalıqları üçün DNT profilinin çıxarılması laboratoriya qarşısında ciddi çətinliklər yaradacaqdır.
- Genetik Laboratoriyada referans nümunələrlə PM nümunələrin emal prosesləri arasında aydın bir fərq yoxdur.
- PCR-dən əvvəl və sonra həyata keçirilən fəaliyyətlər dəqiq ayrılmayıb. Bu isə xüsusilə çətin PM nümunələrində (az miqdarda DNT olan qalıqlarda) analizlərin düzgün aparılması baxımından mühüm əhəmiyyət kəsb edir.
- DNT miqdarının real vaxt rejimində (RT-PCR) kəmiyyət analizi həyata keçirilmir. PM nümunələri üçün RT-PCR kvantifikasiya metodunun təsdiqlənməsi və tətbiqi zəruridir.
- Çünki bu nümunələrdə DNT-nin az miqdarda olması, inhibitorların təsiri və deqradasiya kimi problemlər STR gücləndirilməsini çətinləşdirir.
- Genetik Laboratoriya beynəlxalq ISO 17025 test və kalibrləmə standartına uyğun olmaq üçün hələ də bəzi tələbləri yerinə yetirməlidir. Bura laboratoriya metodlarının tam təsdiqlənməsi daxildir. İtkin düşmüş şəxslərə dair məlumatların, qalıqların aşkarlanması və ekspertizasının, DNT işlənməsinin bütün mərhələlərini bir sistemdə birləşdirən və bu məlumatların analizini və qorunmasını təmin edən proqram təminatı və ya sistem mövcud deyil.

## 4.3. Vətəndaş Cəmiyyətinin İştirakı və Ailələrin Hüquqları

Dövlət Komissiyasında itkin düşmüş şəxslərin ailələrinin və ya vətəndaş cəmiyyətinin nümayəndələrinin heç bir təmsilçiliyi və ya iştirakı yoxdur.

## 4.4. Əməkdaşlıq Mexanizmləri

- 2020-ci ildən sonra Azərbaycanın nəzarətinə qaytarılmış ərazilərdə insan qalıqlarının axtarışı və bərpası ilə bağlı Ermənistanla informasiya mübadiləsinə imkan verən əməkdaşlıq mexanizmi mövcud deyil.
- Həm Ermənistan, həm də Azərbaycan üçün naməlum insan qalıqlarının DNT profillərinin və ailə referans nümunələrinin müqayisəsini aparmağa imkan verən birgə əməkdaşlıq mexanizminə ehtiyac var.

# V. Tövsiyələr

Bu qiymətləndirmə Azərbaycan Respublikasının Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində itkin düşmüş şəxslərlə bağlı apardığı səyləri aydınlaşdırmağa yönəlmişdir. İnsan hüquqları və hüququn aliliyi standartları nəzərə alınmaqla, bu hesabat həmçinin hüquqi çərçivənin gücləndirilməsi, xüsusi məqsədlər üçün institusional imkanların yaradılması, ailələrlə kommunikasiyanın yaxşılaşdırılması, vətəndaş cəmiyyətinin iştirakının artırılması və məhkəmə-tibbi ekspertiza və araşdırma imkanlarının inkişafı üçün tövsiyələr təqdim edir.

## 5.1. İtkin Düşmüş Şəxslərin Axtarışı Üçün Hüquqi Çərçivənin Gücləndirilməsi

### 5.1.1. Bütün Şəxslərin Məcburi Yoxa Çıxmadan Qorunması üzrə Beynəlxalq Konvensiyanın (ICPPED) Ratifikasiyası və Daxili Qanunvericiliyin Yenidən Baxılması

Azərbaycan Respublikası ICPPED konvensiyasını ratifikasiya etməmişdir. Bu konvensiyanın ratifikasiyası ciddi şəkildə tövsiyə olunur, çünki ICPPED qanunvericilik tədbirləri və məlumatların qorunması ilə bağlı mühüm istiqamətlər təqdim edir.

### 5.1.2. Hərbi Əsirlər, Girovlar və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyasının Rolunun Gücləndirilməsi

Dövlət Komissiyası itkin düşmüş şəxslərlə bağlı işlərin həlli üçün müxtəlif dövlət qurumları arasında koordinasiyanı təşviq etmək məqsədilə yaradılmışdır. Azərbaycanda itkin düşmüş şəxslərlə bağlı əsas əlaqələndirici qurum kimi Dövlət Komissiyasının səlahiyyətlərinin və imkanlarının artırılması tövsiyə olunur. Bu, Komissiyanın itkinlər və mümkün məzarlıqlar haqqında məlumatların idarə edilməsi və təhlili kimi birbaşa həyata keçirdiyi fəaliyyətlərin gücləndirilməsinə kömək edəcəkdir. Eyni zamanda, qalıqların tapılması, ekshumasiya və bərpası üzrə digər qurumlarla daha effektiv koordinasiya işinə imkan yaradacaqdır.

Bundan əlavə, itkin düşmüş şəxslərin ailələrinin Dövlət Komissiyasının işində müəyyən formalarda iştirakına şərait yaratmaq tövsiyə edilir.[39] Məsləhətçi mexanizmin və ya oxşar bir qurumun yaradılması Komissiyanın etibarlılığını artıracaq və şəffaflıq, eləcə də hesabatlılığı təşviq edəcəkdir. Komissiya daxilində iştirak və məsləhətləşmə platformasının yaradılması ailələrə qərar qəbuletmə prosesində birbaşa iştirak imkanı verəcək. Eyni zamanda, Dövlət Komissiyası ailələrlə birbaşa kommunikasiyanı təmin edən effektiv kanala sahib olacaqdır.

### 5.1.3. Roma Statutunun Ratifikasiyası

Roma Statutu soyqırım, müharibə cinayətləri və insanlığa qarşı cinayətlərlə bağlı işləri araşdırmaq üçün Beynəlxalq Cinayət Məhkəməsini (ICC) təsis edən beynəlxalq müqavilədir. 14 noyabr 2023-cü il tarixindən etibarən Ermənistan rəsmi olaraq Beynəlxalq Cinayət Məhkəməsinin Tərəf Dövləti olmuşdur.

## 5.2. Araşdırmalarda Standartların və Prosedurların Təkmilləşdirilməsi və Məhkəmə-Tibbi Potensialın Gücləndirilməsi

### 5.2.1. İtkin Düşmüş Şəxslərlə Bağlı Mərkəzləşdirilmiş Məlumat Emalı Sisteminin Tətbiqi

Dövlət Komissiyası tərəfindən artıq toplanmış bütün məlumatların mərkəzləşdirilməsi itkin düşmüş şəxslərlə bağlı işlərin həlli istiqamətində mühüm addımdır. Lakin məlumatların Excel cədvəllərində və kağız nüsxələrdə saxlanılması onların sistemli şəkildə təhlil edilməsini və emalını məhdudlaşdırır. Effektiv məlumat bazası genişmiqyaslı sorğuların və təhlilin aparılmasını təmin etməklə yanaşı, məlumatların qorunmasını da gücləndirən vacib alətdir. Koordinasiyanı gücləndirmək üçün itkin düşmüş şəxslərlə bağlı bütün məlumatların və səylərin hərtərəfli işlənməsini təmin edən, onlayn interfeysə malik bir sistemin qəbul edilməsi və həyata keçir-

39 Dünyada bu cür mexanizmlərin bir çox nümunələri mövcuddur, o cümlədən Bosniya və Herseqovina və Kolumbiyada, burada vətəndaş cəmiyyətinin və itkin düşmüş şəxslərin ailələrinin iştirakı təmin edilir.

ilməsi vacibdir. Bu sistem itkin düşmüş şəxs və onun ailəsi haqqında məlumatları, qalıqların çıxarılması əməliyyatlarını, ekshumasiya nəticələrini, qalıqların ekspertizadan keçirilməsini və uyğunluğun müəyyən edilməsini əhatə etməlidir. Mərkəzləşdirilmiş məlumat sistemi dövlət qurumları ilə ailələr arasında asan ünsiyyət kanallarını inkişaf etdirməli və eyni zamanda cəmiyyət qarşısında şəffaflığı təşviq etməlidir.[40]

### 5.2.2. İnsan Qalıqlarının Aşkarlanması, Ekshumasiya və Bərpa Proseslərinin Təkmilləşdirilməsi

**Dövlət Komissiyası itkin düşmüş şəxslərlə bağlı araşdırılması lazım olan təxminən 200 məkanın siyahısına malikdir. Aşağıdakı tövsiyələr bu sahədə prosedurların təkmilləşdirilməsinə yönəlmişdir:**

- Qarabağ ərazilərində minatəmizləmə prosesini sürətləndirmək;
- Kütləvi məzarlıqların və şübhəli ərazilərin müəyyənləşdirilməsi üçün peyk görüntüləri əsasında araşdırmalar aparmaq;
- Skeletləşmiş, qarışmış, yandırılmış və parçalanmış insan qalıqlarının məhkəmə-tibbi bərpası üzrə standartların hazırlanması və tətbiqi;
- Mövcut sahə qeydiyyat formalarının məhkəmə arxeologiyası üzrə ən yaxşı təcrübələrə uyğun olaraq yenidən nəzərdən keçirilməsi və optimallaşdırılması;
- Xüsusilə qarışmış və parçalanmış qalıqların aşkarlanması zamanı qazıntı prosesinin auditi aparmaq və mümkün boşluqları müəyyənləşdirmək;
- IAEA və Məhkəmə-Tibbi Ekspertiza Birliyi əməkdaşlarının məhkəmə arxeologiyası və fəlakət qurbanlarının identifikasiyası (DVI) sahəsində strateji təlim proqramının hazırlanması və icrasını təmin etmək.

### 5.2.3. İnsan Qalıqlarının Ekspertizası Üzrə Prosedurların Gücləndirilməsi

Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi tərəfindən həyata keçirilən qalıqların ekspertizası prosesini təkmilləşdirmək üçün aşağıdakı tövsiyələr irəli sürülür:

- Skeletləşmiş, qarışmış, yandırılmış və parçalanmış insan qalıqlarının məhkəmə-tibbi və ekspert ekspertizası üçün standart hazırlanması və qəbul edilməsi;
- Bu cür qalıqların işlənməsi zamanı Məhkəmə-Tibbi Ekspertlərin iş axınının auditi aparılaraq prosedur boşluqlarının müəyyən edilməsi;
- Məhkəmə antropologiyası üzrə ən yaxşı təcrübələrə uyğun olaraq qarışmış, yandırılmış və parçalanmış qalıqlara dair antropoloji məlumatların qeydiyyatı formalarının yenilənməsi;
- Cinsi, yaşı və boy uzunluğunu qiymətləndirmək üçün spesifik populyasiya antropoloji standartlarının hazırlanması;
- Məhkəmə-Tibbi Ekspertiza Birliyi əməkdaşlarının məhkəmə antropologiyası və fəlakət qurbanlarının identifikasiyası (DVI) prosedurlarında təlim və peşəkar inkişaf planının hazırlanması və həyata keçirilməsi.

### 5.2.4. DNT Emalı İmkanlarının Təkmilləşdirilməsi

Azərbaycan Respublikasının Birinci və İkinci Qarabağ müharibələri ilə bağlı işlərə fokuslanan DNT laboratoriyası yaratmaq istiqamətində atdığı addımları nəzərə alaraq, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Hospitalının DNT laboratoriyasının inkişafı üçün aşağıdakı tövsiyələr verilir:

- Dövlət Təhlükəsizliyi Xidməti Hospitalının DNT Laboratoriyası üçün Keyfiyyət İdarəetmə Sisteminin (QMS) ISO 17025 beynəlxalq test və kalibrləmə standartlarına uyğun hazırlanması
  - Risk idarəetməsi və Biznesin Davamlılığı/Fəlakətdən Bərpa planlarının QMS çərçivəsində tətbiqi;
  - Uyğunsuz fəaliyyətlər üçün ayrı-ayrı laboratoriya iş axınlarının yaradılması (PM və referans nümunələrin pre-PCR proseslərinin ayrılması və post-PCR proseslərin izolasiya edilməsi);[41]
  - Antikontaminasiya prosedurlarının effektiv tətbiqi, o cümlədən fərdi qoruyucu avadanlıqların istifadəsi, laboratoriyaya daxil olanlardan eliminasiya nümunələrinin toplanması və daha sərt giriş nəzarətinin həyata keçirilməsi;
  - ISO 17025 standartlarına dair təlimlərin və DNT Laboratoriyası Keyfiyyət İdarəetmə təşəbbüslərinin təşviqi;
  - DNT profil analizi və uyğunlaşdırma hesabatlarının hazırlanması üçün laboratoriya metodlarının təsdiqlənməsi və daxili həddlərin müəyyən edilməsi.[42]

---

40 ICMP-nin İnteqrasiya olunmuş Məlumat İdarəetmə Sistemi (iDMS) və Onlayn Sorğu Mərkəzi (OIC) bu funksiyaları təmin edir.

41 Bu məsələ, referans nümunələri laboratoriyasına əlavə Hamilton maye işləmə cihazının alınması ilə həll edilə bilər.

42 ICMP məhkəmə-tibbi ekspertiza sahəsində ən yaxşı təcrübələr üzrə dəstək göstərə bilər və Haaqada yerləşən akkreditasiya olunmuş DNT laboratoriyasında Azərbaycan rəsmiləri üçün praktiki təlimlər təşkil edə, eləcə də virtual və ya yerində

- ICMP-nin DTX Hospitalı DNT Laboratoriyasına DNT-led identifikasiya üçün çətin PM nümunələrinin işlənməsində dəstək verməsi
    - Çürümüş və deqradasiyaya uğramış insan qalıqları üçün DNT STR profilləşdirilməsi və zərurət olduqda ardıcıllığın müəyyən edilməsi;
    - DNT profilinin nəticələrinin birbaşa müqayisəsi və şəcərə analizinin aparılması və hesabatlandırılması;
    - ICMP-nin skelet qalıqlarının DNT analizinə üstünlük verilməsi və prioritetləşdirilməsi üzrə nümunə seçmə yanaşmalarının paylaşılması;
    - Çətin PM nümunələrindən DNT çıxarılmasını optimallaşdırmaq üçün alternativ laboratoriya texnikalarının paylaşılması (məsələn, tam demineralizasiya yolu ilə DNT çıxarılması);
    - Çətin nümunə növləri üçün DNT profil analizi prosedurlarının tətbiqi və laboratoriyada bu sahədə təcrübəli kadrların artırılmasına dəstək;
    - Məhkəmə-tibbi ekspertiza üzrə ən yaxşı təcrübələrə dair təlimlərin keçirilməsi.

- Azərbaycan əhalisini təmsil edən allel tezliyi üzrə bir populyasiya məlumat bazasının yaradılması və ya əldə edilməsi, bu bazanın müstəqil ekspertlər tərəfindən nəzərdən keçirilib nəşr olunması və nəticə etibarilə uyğunluq ehtimal əmsallarının daha dəqiq hesabatlandırılmasına dəstək verilməsi;

- ICMP-nin İnteqrasiya olunmuş Məlumat İdarəetmə Sistemi (iDMS) üzrə təlim və sistemin tətbiqi, xüsusilə aşağıdakı məsələlərdə "Resolve" sistemində mövcud olan boşluqların aradan qaldırılması məqsədilə:
    - İş prosesinin izlənməsi funksionallığı;
    - DNT uyğunluğu və hesabatlandırma funksionallığı.

## 5.3. İtkin Düşmüş Şəxslərin Ailələrinin Hüquqlarının Təmin Edilməsi və Vətəndaş Cəmiyyətinin İştirakı

### 5.3.1. Vətəndaş Cəmiyyəti və İtkin Ailələri Assosiasiyaları ilə Əməkdaşlıq və Koordinasiya Mexanizmlərinin Yaradılması

İtkin düşmüş şəxslərin ailələrinin və vətəndaş cəmiyyətinin ictimai siyasətin formalaşdırılmasında iştirakı, onların hüquqlarına hörmətin təşviqi baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət Komissiyası 19 hökumət qurumundan ibarətdir, lakin burada nə itkin düşmüş şəxslərin ailələrinin, nə də vətəndaş cəmiyyətinin nümayəndəliyi mövcuddur. Bu maraqlı tərəflərin iştirakını təmin edən bir mexanizmin yaradılması, hökumət tərəfindən həyata keçiriləcək strategiyaların müəyyən edilməsində vətəndaş cəmiyyəti təşkilatlarının və ailələrin fikirlərinin nəzərə alınmasına, idarəetmə proseslərinin şəffaflığına və ümumilikdə cəmiyyətin dövlətə etimadının artmasına müsbət təsir göstərə bilər.

### 5.3.2. İtkin Düşmüş Şəxslərin Ailələrinin Milli, Regional və Beynəlxalq Fəaliyyətlərinin Təşviq Edilməsi

İtkin düşmüş şəxslərin ailələri itkinlərin qeydiyyata alınması prosesində əsas iştirakçılardan biri olduğuna görə, onların bir araya gələ biləcəyi və vəkillik, ictimai məlumatlandırma və Azərbaycanın itkin düşmüş şəxslərlə bağlı məsələsinin beynəlmiləlləşdirilməsi istiqamətində müstəqil fəaliyyət göstərə biləcəyi bir məkanın təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, dövlətin gördüyü tədbirlərlə paralel olaraq, vətəndaşlardan ibarət bir qrupun itkin düşmüş şəxslər məsələsinin həllinə mənalı şəkildə töhfə verməsinə imkan yaradacaqdır. Bu xüsusilə aşağıdakı aspektlərdə əhəmiyyətlidir: itkin düşmüş şəxslər haqqında məlumatlandırma, Azərbaycandan kənarda yaşayan qohumlarla əlaqənin qorunması, yerli təşəbbüslərin təşkili, eləcə də anım və xatirə tədbirlərinin həyata keçirilməsi. İtkin düşmüş şəxslərin ailələrinin beynəlxalq şəbəkələşməsinə dəstək vermək, onların bu problemin qlobal xarakterini daha dərindən anlamasına və oxşar vəziyyətdə olan digər ailələrlə əlaqə qurmasına imkan yaradacaqdır.

## 5.4. Beynəlxalq İctimaiyyət ilə Əməkdaşlıq

### 5.4.1. Vətəndaş Cəmiyyətinin İtkin Düşmüş Şəxslərlə Bağlı Məsələlərə Cəlb Edilməsinin Təşviqi

Beynəlxalq ictimaiyyət itkin düşmüş şəxslər məsələsində müstəqil və aktiv vətəndaş cəmiyyətinin rolunu təşviq etməlidir. İtkin düşmüş şəxslərin ailələrinin təşkilatlanmasına və gücləndirilməsinə dəstək verilməsi bu istiqamətdə hər hansı bir

məsləhətləşmə, audit və keyfiyyət idarəetməsi üzrə tövsiyələr təqdim edə bilər.

təşəbbüsün ayrılmaz hissəsi olmalıdır. Bu yanaşma itkin düşmüş şəxslərlə bağlı problemlərin həllində cəmiyyətin fəal iştirakını təmin edəcək və onların hüquqlarının qorunmasını gücləndirəcəkdir.

### 5.4.2. İtkin Düşmüş Şəxslər Məsələsinin Davam Edən Sülh Səylərində İnkişaf Etdirilməsi

Sülh danışıqları davam edərkən, itkin düşmüş şəxslər məsələsinin bütün müzakirələr və təşəbbüslər çərçivəsində daimi gündəm maddəsi kimi saxlanması vacibdir. Bu yanaşma, Azərbaycan və Ermənistanda itkin düşmüş şəxslər məsələsinin hərtərəfli şəkildə həlli üçün davamlı və hüquqi çərçivənin formalaşdırılmasına töhfə verəcəkdir. Bu müzakirələrə və səylərə ICMP kimi ixtisaslaşmış təşkilatların ekspertlərinin cəlb olunması vacibdir. Bundan əlavə, bu təşkilatların müvafiq tərəflərə strateji təkliflər və birbaşa texniki dəstək verməsi üçün imkan yaradılmalıdır.

### 5.4.3. Münaqişədən Təsirlənmiş Ərazilərdə Axtarış və Qalıqların Bərpası Üzrə Əməkdaşlıq Mexanizmi

2020-2023-cü illər ərzində Azərbaycan münaqişədən təsirlənmiş ərazilərdə itkin düşmüş şəxslərin qalıqlarının tapılması və çıxarılması istiqamətində genişmiqyaslı səylər göstərmişdir. Şəffaflığı və əldə edilən nəticələrin etibarlılığını təmin etmək məqsədilə, çıxarılma əməliyyatlarının Azərbaycan rəsmiləri tərəfindən, lakin eyni zamanda tapıntıları təsdiqləyə bilən və maraqlı tərəflərlə açıq şəkildə paylaşılmasını təmin edə biləcək etibarlı müstəqil beynəlxalq tərəfdaşların iştirakı ilə aparılması tövsiyə olunur. Bu mexanizmdən istifadə etməklə, ölkə hakimiyyət orqanları çıxarılma əməliyyatlarına rəhbərlik edə bilər, eyni zamanda obyektiv, şəffaf və etibarlı bir prosesin həyata keçirilməsini təmin edərək məhkəmə institutları da daxil olmaqla, bütün maraqlı tərəflərin etimadını və qəbulunu qazana bilər.

### 5.4.4. Ermənistan və Azərbaycan arasında İtkin Düşmüş Şəxslər üçün Müstəqil DNT Müqayisə Mexanizminin Yaradılması

Hazırda həm Ermənistanın, həm də Azərbaycanın Birinci və İkinci Qarabağ müharibələrindən itkin düşmüş şəxsləri var və müharibədən təsirlənmiş ərazilərdən çıxarılan naməlum qalıqlar hər iki tərəfə aid ola bilər. Buna görə də, DNT müqayisəsi üçün müstəqil bir mexanizmin yaradılması identifikasiyaların təsdiqlənməsi və nəticələrin ailələrə təqdim edilməsi üçün azsaylı effektiv üsullardan biri ola bilər.

Bu mexanizm vasitəsilə, məsələn, ICMP elmi və qərəzsiz bir prosesi təmin edə bilər, burada DNT profilləri anonim və sistemli bir üsulla müqayisə edilərdi. Bu yanaşma, DNT vasitəsilə aparılan identifikasiya prosesini hər hansı siyasi və ya milli təsir iddialarından qoruyar. Əgər uyğunluq müəyyən edilərsə, müqayisənin nəticələri hər iki ölkəyə təqdim ediləcək və məhkəmə-tibbi ekspertlər və müvafiq qurumlar elmi sübutlara əsaslanaraq məlumatlı qərarlar qəbul edə biləcəklər.

Bu mexanizm, bütün millətlərdən olan ailələrə cavab tapmaq imkanı yaratmaqla yanaşı, həmçinin bölgədə əməkdaşlığı və barışığı təşviq edəcək. Bu, itkin düşmüş şəxslər məsələsinin milli sərhədləri aşan bir problem kimi kollektiv şəkildə həllinə sadiqlik nümayiş etdirmək üçün bir fürsət olacaqdır.

# VI. **ICMP** Haqqında

ICMP, Niderlandın Haaqa şəhərində Baş Qərargahı yerləşən və beynəlxalq müqavilələrə əsaslanan hökumətlərarası təşkilatdır. Onun mandatı münaqişə, insan haqları pozuntuları, fəlakətlər və digər məcburi səbəblər nəticəsində itkin düşmüş şəxslərin tapılması istiqamətində hökumətlərin və digər qurumların əməkdaşlığını təmin etmək və onlara bu sahədə yardım göstərməkdir. Sistemli və effektiv itkin düşmüş şəxslər proqramı çox sayda işin həllinə töhfə verə bilər, bu da ailələrin

həqiqətə, ədalətə və təzminata çıxış hüququnu təmin etməyə imkan yaradır. Bu, qanunun aliliyinin qorunması üçün əsas amildir və hər hansı münaqişədən sonrakı nizamlanma prosesində mühüm rol oynayacaqdır. 40 ölkədə 27 ildən artıq təcrübəyə malik olan ICMP, hökumətlərə qanunun aliliyinə əsaslanan institutlar qurmaqda yardım edir ki, bu institutlar qərəzsiz və effektiv şəkildə itkin düşmüş şəxsləri axtara və müəyyən edə bilsinlər. Bundan əlavə, ICMP, itkin düşmüş şəxslərin ailələrinin öz hüquqlarını müdafiə etməsinə imkan verən qanunvericiliyin hazırlanması üzrə dəstək göstərir.

# VII. Təşəkkürlər **sözləri**


ICMP bu layihənin və qiymətləndirmə hesabatının maliyyələşdirilməsinə görə Niderland hökumətinə təşəkkürünü bildirir.

ICMP həmçinin müsahibələr, ekspert rəyləri və itkin düşmüş şəxslərlə bağlı səylərini bölüşməklə təşkilatla əməkdaşlıq edən bütün maraqlı tərəflərə təşəkkür edir və onların töhfəsini yüksək qiymətləndirir.

- Hərbi əsirlər, girovlar və itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası (Dövlət Komissiyası);
- Xarici İşlər Nazirliyi (XİN);
- Müdafiə Nazirliyi (MN);
- Ədliyyə Nazirliyi (ƏN);
- Baş Prokurorluq;
- Azərbaycan Respublikası Prezident Administrasiyası;
- Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman);
- Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi (Məhkəmə-Tibbi Ekspertiza Birliyi);
- Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA);
- Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu (AEEA);
- Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Xəstəxanasının Genetik Laboratoriyası;
- İtkin düşmüş şəxslərin ailələrinin nümayəndələri və digər vətəndaş cəmiyyəti təşkilatları;
- Qaçqın və köçkün icmasının nümayəndələri;
- Helsinki Vətəndaş Assambleyası (HVA) – Azərbaycan Nümayəndəliyi;
- Sülh və Demokratiya İnstitutunun keçmiş nümayəndəsi;
- Qarabağda Hərbi Əsirlər və Girovların Azad Edilməsi və İtkin Düşmüş Şəxslərin Axtarışı üzrə Beynəlxalq İşçi Qrupu (IWG);
- Beynəlxalq Böhran Qrupu (ICG);
- Niderland Krallığının Azərbaycan Respublikasındakı Səfirliyi;
- Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK);
- Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT).

ICMP eyni zamanda Azərbaycan Respublikasının Niderlanddakı Səfirliyinə, Xarici İşlər Nazirliyinə və Hərbi Əsirlər, Girovlar və İtkin Düşmüş Şəxslər üzrə Dövlət Komissiyasına bu qiymətləndirmə ilə bağlı bütün görüşlərin və fəaliyyətlərin koordinasiyasında göstərdikləri dəstəyə görə dərin minnətdarlığını bildirir.

**İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyası | İyul 2024**

ICMP Baş Qərargahı ▪ Koninginnegracht 12
2514 AA Haaqa, Niderland
icmp@icmp.int ▪ www.icmp.int ▪ @TheICMP ▪ /TheICMP ▪ @TheICMP